BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2014*

UOT 94"19/...
UOT 341.7

# "ƏRƏB BAHARI" ABŞ-ın GEOSİYASİ MARAQLARI KONTEKSTİNDƏ

**N.C.ƏSƏDOV**
***Azərbaycan Dillər Universiteti***
***n_asadov@mail.ru***

*2010-cu ildən başlayaraq bu günə qədər davam edən və geosiyasi proseslərə cox güclü təsir edən "ərəb baharı" Şimali Afrikanın siyasi vəziyyətində köklü dəyişikliklərə səbəb oldu. Bu proseslər ABŞ-ın Yaxın Şərq siyasətində fərqli istiqamətin formalaşdığını göstərdi. Məqalədə ABŞ prezidentləri C.Buş və B.Obamanın Yaxın Şərq siyasəti müqayisəli təhlil edilir və ABŞ-ın geosiyasi maraqları araşdırılır.*

**Açar sözlər:** ABŞ, Suriya, demokratiya, islahat, Afrika

Artıq üç ildən artiq davam edən və dünya mətbuatında "ərəb baharı" kimi adlandırılan proseslər 18 dekabr 2010-cu ildə Tunisdə Məhəmməd Buəzizi adlı bir gəncin özünü yandıraraq öldürməsindən sonra başladı. Bundan sonra küçələrə çıxan tunislilər işsizlik, korrupsiya və yoxsulluğun aradan qaldırılması ilə əlaqədar şüarlar səsləndirməyə başladılar. Hakimiyyət qüvvələri ilə xalq arasındakı toqquşmalar insan tələfatlarına səbəb oldu. Nəticədə iqtisadi şüarlar siyasi şüarlarla əvəz olunmağa başladı [2]. Ölkə başçısının son islahatları da heç bir nəticə vermədi. Artıq 23 ildir dövləti "analoqu olmayan iqtisadi yüksəliş"ə çatdıran müsəlman monarxlarından biri Zeynalabdin bin Əli qaçmağa məcbur oldu. Demək olar ki, əksəriyyətinin monarxlar tərəfindən idarə olunduğu və xalqının amansızcasına istismar olunduğu digər ərəb ölkələrində inqilabın qələbəsi təkanverici qüvvə oldu.

Ərəb baharının nəticəsi ən yaxşı halda demokratik rejimlərin bərqərar olduğu müsəlman dövlətinin yaranması ola bilər. Bu quruluş kimin marağındadır? Təbii ki, ilk öncə 22 dövlətdə yaşayan ərəb xalqının. Beynəlxalq nöqteyi nəzərdən baxdıqda isə mürəkkəb bir görüntü yaranır. "Demokratiya ixrac məhsulu ola bilər" deyərək çox keçmədən isə "demokratiyanı müsəlman dünyasına yaymaq" ideyası ilə çıxış edən Riçard Xaasın xələflərini yəqin ki, bu gediş qane edir. "Demokratiya kartof deyil ki, onu planlaşdırdığın yerdə əkəsən" [7] deyən, Rusiya Federasiyasının keçmiş xarici işlər naziri Sergey

İvanovun xələflərini isə yəqin ki, bu kartofun ixrac məhsulu olması narahat edir. “İlanın ağına da qarasına da lənət” deyən teokratik ərəb şeyxləri, İran mollaları və Çin sosialistləri də Rusiyanın narahatlığını bölüşürlər. Demokratiyanı özləri icad etsə də, onu amerikanlardan öyrənən avropalıların, “Demokratiya bərbad bir dövlət formasıdır. Lakin təəssüf ki, digərləri də bir o qədər bərbaddır” deyən dahi siyasətçisi Çörçilin müasirlərinin isə ABŞ-ı dəstəkləməkdən başqa əlacı yoxdur.

Məlumdur ki, ABŞ dünyanın super gücü olaraq xarici siyasətini təkcə prezidentlərin öhdəsinə verməz, dolayısı ilə siyasət prezidentdən prezidentə, partiyadan partiyaya dəyişməz. Seçkilərdə qalib gəlmiş prezident bu fikrə düşsə belə onu bu fikrindən daşındırarlar (C.Kennedini misal göstərmək olar). ABŞ-da xarici siyasətin formalaşmasını təmin edən beyin mərkəzləri fəaliyyət göstərir [6]. Onlar dünyanın istənilən regionunda istənilən dövlət haqqında bütün məlumatlara sahib olmaqla, bu məlumatların təhlilini aparmaqla dövlətin xarici siyasətini müəyyən edirlər. Belə bir uzunmüddətli fəaliyyətin nəticəsini hər dəfə seçkilərdə qalib gəlmiş prezidentə uyğun olaraq formalaşdırmaq qarşısıalınmaz qarışıqlıq yarada bilər. Əsas siyasi xəttdən vaz keçmədən üslub dəyişdirməklə bu strategiya öz varlığını qoruyub saxlayır.

Buna görə də, əslən, radikal və təcavüzkar siyasət yürüdən və qatı xristian olan C.Buşdan sonra müsəlman ölkəsi Keniyadan olan ABŞ-ın ilk qaradərili prezidenti Barak Hüseyn Obamanın hakimiyyətə gəlməsini müsəlman aləminin xilası kimi dəyərləndirən islam ümməti tezliklə bu gəlişin də dövlətin bir nömrəli məqsədi olan “ABŞ-ın dominantlığı və ona rəqib ola biləcək gücün meydana gəlməsinə imkan verməmə”yə xidmət edəcəyini anlayacaqdılar. Sadəcə olaraq Buş adminstrasiyası ABŞ-ın xarici siyasətinin əsas problemlərini həll etdikdən sonra (Əfqanıstan və İraq müharibələri) ABŞ-a qarşı yönəlmiş olan mənfi münasibətin aradan qaldırılması ABŞ-ın imperialist maraqlarının ümumbəşəri maraqlardan üstün olmadığını göstərmək üçün humanist Obamaya ehtiyac var idi. Bütün dünyaya bir sıra dinc məqsədlərindən danışaraq bu yolda əməli addımlar atan Obama adminstrasiyası mənfi imici yox etməklə yanaşı ABŞ-ın maraqlarını da həyata keçirməyə başladı.

2001-2009-cu illər ərzində ABŞ-a başçılıq etmiş C.Buşun 20 sentyabr 2002-ci ildə nəşr olunmuş 49 səhifəlik Milli Təhlükəsizlik Strategiyasında, xarici siyasətdə önəm veriləcək əsas məsələlər 7 bölmədə öz əksini tapdı. Eyni məsələlər Obamanın 4 iyun 2009-cu ildə Qahirədəki çıxışında əsas başlıqlar kimi qeydə alınmışdır. Bunlar, Əfqanıstan və İraqdakı vəziyyət, Fələstin problemi, başda nüvə olmaqla kütləvi qırğın silahlarının yayılması problemi, demokratiyanın dünyaya yayılmasını təmin etmək, din azadlığının dünyada hər kəs üçün təmin edilməsi, qadın hüquqlarının qorunması və qloballaşmanın iqtisadi fürsətlərindən yararlanmaq [8].

Buş doktrinasının həyata keçirilməsində Buşun istifadə etdiyi sərt üslub Barak Obamanın siyasətində özünü göstərmir, lakin eyni siyasət davam etdirilir. Barak Obamanın, hakimiyyətə gəlməmişdən əvvəl vəd verdiyi dəyişim,

üslub dəyişkənliyindən başqa bir şey olmadı. Əksərən belə olur, müxalifətdə olanda həqiqət deyilir, iqtidara gələndə həqiqətdən qaçılır. Seçki kompaniyalarında xalq, sülh, demokratiya, iqtidarda öz yerini dövlət, müharibə və bürokratiyaya verir [4]. Obamanın dəyişiklik deyərək hakimiyyətə gəlməsi bir sıra vədlər verməsinə səbəb oldu. Bu vədlər Buşun prezidentliyi dövründə bütün dünyada, xüsusən də müsəlman aləmində ABŞ-a qarşı yaranmış nifrəti aradan qaldıra bilərdi. Çünki bu vədlərə ABŞ qoşunlarının İraqdan çıxarılması, əksəriyyətini müsəlman məhbuslar təşkil edən Quantanamo həbsxanasının ləğv olunması, İsrail-Fələstin problemində Fələstini bərabərhüquqlu dövlət kimi tanımaq məsələsi aid idi. Artıq birinci prezidentlik dövrünü başa vuran B.Obamanın 4 illik fəaliyyətində bu vədlərdən yalnız birinin həyata keçirilməsi - ABŞ qoşunlarının 2012-ci ilə qədər İraqdan çıxarılması ilə bağlı vədi 2011-ci ilin dekabrın 18-də yerinə yetirildi. Quantanamo hərbi bazasının 2010-cu ildə bağlanması ilə bağlı sərəncam verməsinə baxmayaraq bu sərəncamın yerinə yetirilməməsi və 2012-ci ilin sentyabr ayında Fələstini vaxtilə Buşun debatlar üçün klub adlandırdığı BMT-yə qəbul olunması məsələsində 107 dövlətin lehinə səs verməsinə baxmayaraq ABŞ-ın İsrailin yanında yer alaraq [3] əleyhinə səs verməsi Obamanın da məqsədlər baxımından idealist, vasitələr baxımından isə realist siyasətə sadiq qaldığını göstərdi.

Hakimiyyətə gəlişinin ilk altı ayını Buşdan miras qalan iqtisadi böhranın aradan qaldırılması və bu məsələ ilə avropalı müttəfiqlərinin başını qatan Obama Müsəlman dünyasına böyük müraciətə hazırlaşırdı. Buşun siyasi fəaliyyətini yalnız tənqid etməklə belə müsbət imic qazana biləcəyini bilən Barak Obamanın C.Buş adminstrasiyasının aqressiv siyasətinin əksi olaraq, sülh ismarıcları bir müddət dünya ictimaiyyətinin diqqətini yayındırmağa kömək etdi. Yüz gün bitdi, iqtisadi böhran bitdi, ancaq insanlar, dəyişiklik deyəndə nələrin nəzərdə tutulduğunu, prezidentin 2009-cu ilin aprel ayının 6-7-də Türkiyəyə [9] və 2009-cu ilin iyunun 4-də Misirə etdiyi səfərlərindəki çıxışlarından öyrəndi. Buş adminstrasiyasından sonra, Yaxın Şərqin ABŞ-ın siyasi maraq hədəfindən çıxarılacağına ümid edən müsəlmanların ümidi, B.Obamanın Misir universitetlərindəki çıxışı ilə boşa çıxdı. Bu çıxış ABŞ-ın ən azı 4 il daha Yaxın Şərqi həyati maraq dairəsinə saldığını göstərdi: zorakı ekstremizm, İsrail-Fələstin münaqişəsi, İranın nüvə proqramı, Əfqanıstanda antiterror müharibə, İraq məsələsi, dini azadlıq və s. məsələlər haqqında nitqi bunu sübut edir.

Əsas siyasi silahı demokratiya olan ABŞ-ın digər rəqiblərinə qarşı üstünlüyü də elə demokratiya oldu. Demokratik quruluşa keçid uğrunda mübarizə aparan xalqı dəstəkləməkdən asan nə ola bilər ki?

Başqa bir uğur isə, Çinlə bağlıdır. Çin Xalq Respublikasının son on ildə dünyanın iqtisadi cəhətdən nəhəng dövlətləri hesab olunan Almaniya və Yaponiyanı arxada qoyaraq ABŞ-ın ardınca ikinci pilləyə yüksəlməsi, qarşıdakı onillikdə də dünya liderinə çevrilməyi hədəfləməsi rəsmi Vaşinqtonu ciddi narahat etməyə başlayıb. İndi Vaşinqtonun qarşısında duran ən başlıca vəzifə Pekinin iddialarının qarşısını almaqdır. Bu səbəbdən də, Vaşinqton bir neçə

istiqamətdə fəal iş aparmağa başlayıb ki, onlardan biri də Çini enerji mənbələrinə çıxışdan məhrum etmək və yaxud da onu tamamilə məhdudlaşdırmaqdan ibarətdir. Bunu ABŞ-ın maliyyə nazirinin sabiq müavini Pol Kreyq Robertsin açıqlamasından da görmək olar. ABŞ-ın Liviya ilə bağlı mövqeyini şərh edərkən sabiq nazir müavini deyib ki, Vaşinqtonun əsas məqsədi Çini Aralıq dənizi regionundan sıxışdırıb çıxarmaqdır.

Məsələ ondan ibarətdir ki, son illər Çin bu regiona çox böyük məbləğdə sərmayələr yatırmaqla enerji qaynaqlarını ələ keçirməyə başlamışdı. Son illər Liviya, Anqola, Sudan, Fil Dişi Sahili və Nigerin əsas tərəfdaşına çevrilən Çinin bu ölkələrin təbii sərvətlərini öz əlinə keçirməklə yanaşı, həm də öz ideologiyasını bu regiona yayması Vaşinqtonu qəti hərəkətlərə sövq edirdi. Bir neçə il əvvəl Niger Çinlə müqavilə bağlayaraq uran və neft yataqlarını Pekinin istifadəsinə verdi. Ötən il bu ölkədə baş verən çevriliş nəticəsində Çin şirkətləri böyük itkilərə məruz qaldılar. Bundan əvvəl isə Çin Sudanda tayfalararası münaqişələrin alovlanması və ölkənin bölünməsi nəticəsində bu ölkədəki mövqelərini itirmişdi.

Fil Dişi Sahilinin sabiq prezidenti Qbaqbo ölkəsində kəşf edilən neft yataqlarını Çinlə bölüşməsinin "qurban"ı oldu. Ötən ilin sonunda bu ölkədə keçirilən prezident seçkilərində Qərbin dəstəklədiyi Uattara qalib gəldi. Ancaq Qbaqbonun seçkinin nəticələrini tanımaqdan imtina etməsi Qərbin müdaxiləsi ilə nəticələndi və Çinlə əməkdaşlıq bu tiranı da hakimiyyətdən saldı. Eyni proses Liviyada da müşahidə olunur. Bir müddət əvvəl Liviya diktatoru Müəmmar Qəddafi ABŞ-ın Çini regiondan sıxışdırıb çıxarmaq üçün region ölkələrinin liderlərini əməkdaşlığa çağırmasına qoşulmamış və Pekinlə əməkdaşlığı gücləndirmişdi [1]. Liviyanın şərqində əllidən artıq layihə həyata keçirən və layihələrə böyük məbləğdə sərmayə qoyan Çin şirkətləri inqilab dalğasının bu ölkəyə sıçraması nəticəsində yüz milyonlarla dollar itiriblər. Həmin şirkətlərin itkiləri daha da artmaqdadır. Neft idxalında Afrikanın payının artmaqda davam etməsi və yaxın illərdə bunun ümumi neft idxalatının 25 faizini təşkil edəcəyi də rəsmi Vaşinqtonu regionda güclənməyə və rəqiblərini sarsıtmağa vadar edən əsas amillərdəndir. Bunun üçünsə ən asan yol region ölkələrinin despot liderlərinə qarşı mübarizə aparan müxalifəti dəstəkləmək və onun hakimiyyətə gəlişini təmin etməkdir. İndi məlum olur ki, 2008-ci ildən başlayaraq ABŞ Şimali Afrika və Yaxın Şərq ölkələrindəki müxalifət qüvvələri ilə fəal şəkildə işləyib və onlara külli məbləğdə maliyyə yardımı edib. Çox maraqlı məqamlardan biri də odur ki, məhz 2008-ci ildə ABŞ silahlı qüvvələrinin Birləşmiş Afrika Komandanlığı yaradılıb. Qısa adı "Afrikom" olan bu komandanlığın qarşısında duran əsas vəzifə isə regiondakı vəziyyəti nəzarətdə saxlamaqdır. [5] Bu komandanlıq ABŞ şirkətlərinin işlədiyi ərazilərdə asayişi bərpa etməklə yanaşı, həm də Çinin aqressiv ekspansiyasına qarşı mübarizə aparan diplomatik korpusa və biznes dairələrinə də lazımi dəstəyi göstərir. Elə həm də bu səbəbdəndir ki, Vaşinqtonun gördüyü tədbirlər artıq öz nəticəsini verir və Çin son on ildə Şimali Afrika və Yaxın Şərqdə qazandığı mövqeyin əhəmiyyətli

hissəsini "ərəb baharı" nəticəsində itirib. ABŞ-ın mövqeləri isə əhəmiyyətli dərəcədə güclənməkdədir.

Digər bir rəqib Rusiyanın proseslərə nə dərəcədə müdaxilə edə biləcəyini demək üçün Rusiyanın öz daxilində gedən proseslərin səngiməsi lazım idi. Rusiyada keçirilən Duma seçkilərinin ABŞ-ın dövlət katibi Hillari Klinton tərəfindən tənqid edilməsi Putinin təmsil etdiyi partiyanın qələbəsini şübhə altına salmaqla geniş etiraz aksiyaları ilə müşayiət olundu. Öz daxili işlərinə başı qarışan Rusiya adminstrasiyasının siyasi liderlərinin də mövqeləri bir-birindən kəskin fərqləndi. Qərbin, BMT Təhlükəsizlik Şurasının mandatına uyğun olaraq, Liviya diktatoru Müəmmar Qəddafiyə qarşı hərbi əməliyyatlara başlaması Rusiya rəhbərliyində təmsil olunan siyasi liderlər tərəfindən fərqli qarşılandı. Əgər prezident Dmitri Medvedev Liviya diktatoruna qarşı hərbi əməliyyatları dəstəkləyirdisə, baş nazir Vladimir Putin Qərbin Liviyaya hərbi müdaxiləsinə sərt reaksiya verərək, onu orta əsr "Xaç yürüşləri" ilə müqayisə etdi. Liviyada Müəmmar Qəddafi əleyhinə mübarizə aparan qüvvələr isə Putinin bu bəyanatına Rusiya bayraqlarını yandırmaqla cavab verdilər. Liviya müxalifətinin Benqazidə qurduğu Milli Keçid Şurası isə bəyanat yayaraq Qəddafi dövründə bağlanmış müqavilələrə münasibətin bu gün üsyançılara bəslənən münasibətdən asılı olacağını bildirdi. Benqazidəki müxalifət açıq şəkildə bildirir ki, kim onlara dəstək versə, Liviyanın sərvətlərinin istismarında iştirak edəcək. Qəddafini dəstəkləyən və ya tərəfsiz qalmağa cəhd edənlər isə Liviyadan getməli olacaqlar. Buşun ya bizim yanımızdasınız ya da bizim qarşımızda prinsipi məsələnin qəlizləşdiyini görən Kreml dərhal hərəkətə keçdi. Əvvəlcə prezident Dmitri Medvedev Putinin fikirinin Rusiyanın siyasəti olmadığını açıq bəyan etdi. Bunun ardınca isə prezident xüsusi nümayəndəsi Mixail Markelovu Liviyaya göndərdi. Markelovun qarşısında qoyulan əsas vəzifə isə Benqazi ilə münasibətlər yaratmaqdan ibarət idi. Tripoli ilə yanaşı Benqazidə də olan Markelov hər iki tərəfin humanitar yardım haqqındakı xahişlərini nəzərə ala biləcəklərini bəyan etdi və Rusiyanın Liviyada savaşan hər iki tərəfə eyni münasibət bəslədiyini nümayiş etdirməyə çalışdı [1].

Markelovun Liviya səfərinin ardınca müxalifətin Benqazidə qurduğu hökumətin üzvləri Moskvada peyda oldular və onlar hörmətlə qarşılandılar. Bunun ardınca prezident Dmitri Medvedev Müəmmar Qəddafinin hakimiyyətdən çəkilməsi üçün vasitəçilik etməyə çalışdı. Onun bu missiyası uğurlu alınmasa da, Rusiyanın Liviya ilə bağlı siyasətində hansı dəyişikliklərin baş verməsini görmək baxımından əhəmiyyətli məqamdır. Rəsmi Moskvanın BMT Təhlükəsizlik Şurasında Suriya ilə bağlı qətnamənin qəbuluna və sanksiyaların tətbiqinə qarşı çıxması, prezident Dmitri Medvedevin Bəşər əl-Əssədlə telefon danışığı zamanı ona öz dəstəyini vəd etməsi bu ölkədə də Rusiya əleyhinə aksiyalara səbəb oldu. "Əl-Cəzirə" telekanalının Suriyadan yayımladığı görüntülərin birində Bəşər əl-Əssəd hakimiyyətinə qarşı mübarizə aparan qüvvələrin Rusiya bayraqlarını yandırması aydın görünürdü. Bu dəfə isə prezidentin səhvini baş nazir Vladimir Putin düzəltməyə çalışdı. Belə ki, Fransa baş naziri

ilə görüşdə Putin Bəşər əl-Əssədə qarşı təzyiqlərin artırılmasının vacibliyi haqqında bəyanat verməklə vəziyyəti düzəltmək istədi. Bütün bunlar isə göstərdi ki, Rusiya Şimali Afrika və Yaxın Şərqdə baş verən proseslərə təsir etmək gücündə deyil və hadisələrin arxasınca sürünür. Liviyada milyardlarla dollarlıq müqavilələri və tenderləri itirən Rusiya getdikcə daha çox geri çəkilir və Yaxın Şərqdəki mövqelərini sürətlə itirir [1]. İran kimi Rusiyanın da son ümidi Suriyadır. Suriya ətrafındakı proseslərin bu qədər uzanması isə iki cəbhə arasındakı rəqabətin hələ ki, qalibinin olmamasından irəli gəlir.

## ƏDƏBİYYAT


1. Cəfərov X. ABŞ rəqiblərini "Ərəb baharı" ilə vurur http://www.mia.az/news/16547.html
2. Tunis inqilabi(2010-2011), http://az.wikipedia.org/wiki/Tunis
3. http://aran.irib.ir/xeberler/yaxin-serq/item/1307
4. Akyeşilmen Nezir "Obama doktrini" 06.06.2009 http://www.yenisafak.com.tr/yorum/?i=190739
5. Африканское командование вооруженных сил США ru.wikipedia.org/wiki/
6. Уткин А.И. Американская стратегия для XX века. М.: Логос, 2000, 272 стр.
7. Gause F., "Can Democracy Stop Terrorism?" //Foreign Affairs", September/October 2005, vol.84, 71 p.
8. Obama adopts the Bush Doctrine. By Charles Krauthammer | May 23, 2011. WASHINGTON, http://articles.chicagotribune.com/keyword/bush-doctrine4243
9. Remarks-By-President-Obama To The-Turkish parliament, http://www.whitehouse.gov/the_press_office/


## «АРАБСКАЯ ВЕСНА» В КОНТЕКСТЕ ГЕОПОЛИТИЧЕСКИХ ИНТЕРЕСОВ США. МЕНЯЮТСЯ ЦЕЛИ ИЛИ СРЕДСТВА?


**Н.Дж.АСАДОВ**


### РЕЗЮМЕ


«Арабская весна» имеющая сильное влияние на геополитичесие процессы, начавшись в 2010 году, продолжается и сегодня, стала причиной коренных изменений в Северной Африке. Эти процессы показали формирование новых направлений в политике США относительно Ближнего Востока. В статье изучаются геополитические интересы США, также проведен сравнительный анализ политики Дж. Буша и Б. Обамы на Ближнем Востоке.



**Ключевые слова:** США, Сирия, демократия, реформа, Африка

## THE "ARAB SPRING" IN THE CONTEXT OF GEOPOLITICAL INTERESTS OF THE UNITED STATES

**N.J.ASADOV**

**SUMMARY**

The Arabian spring making a deep influence on the geopolitical process beginning from 2010 caused radical changes in the political radical changes in the political position of North Africa. This process indicated the formation of a new direction in the USA's Middle East policy. The article makes a comparative analysis of the USA's Middle East policy pursued by presidents Bush and Obama is and studies in its USA's geopolitical interests.

**Key words:** USA, Syria, democracy, reform, Africa